AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

13 OKTYABR 2024-cü il BAZAR | № 225 (7983) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ

# Qətiyyətli siyasi iradə, güclü mövqe



*Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, regionun aparıcı dövlətinə çevrilib, tamamilə müstəqil siyasət yürüdən ölkə kimi beynəlxalq aləmdə böyük nüfuz qazanıb. Müasir dövrdə qloballaşma şəraitində dövlətlərin gücünü, beynəlxalq münasibətlər sistemində yeri və rolunu müəyyənləşdirən başlıca amil həyata keçirilən strateji kursun səmərəliliyidir. Daxili və xarici siyasət milli maraqları təmin etməklə yanaşı, ölkələrin qarşısında yeni perspektivlərin yaranmasını da şərtləndirir.*

***Hazırda dünyada baş verən mürəkkəb geosiyasi proseslər fonunda ölkəmizin nüfuzu yüksəlir***

Müstəqil siyasət həyata keçirən, güclü siyasi iradəyə malik olan dövlətlər beynəlxalq mövqelərini mütəmadi olaraq gücləndirir, dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olurlar. Bu kontekstdə Azərbaycanın təcrübəsi unikal, mütərəqqi nümunədir.

2003-cü ildən başlayaraq sürətli sosial-iqtisadi inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan həm də dünyaya özünün yeni inkişaf modelini təqdim edib. Bu gün dünyanın müxtəlif nöqtələrində, nüfuzlu beynəlxalq qurumlarda, ayrı-ayrı mötəbər tədbirlərdə Azərbaycanın inkişaf modeli, nümunəsi təqdir olunur. Dinamik iqtisadi inkişafı və beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqeyi ilə seçilən, öz ərazi bütövlüyünü, bununla ədaləti və beynəlxalq hüququ təmin etmiş qalib dövlət olan Azərbaycan, eyni zamanda vətəndaş rifahının təminatı istiqamətində güclü sosial siyasətə malikdir.

2020-ci il sentyabrın 27-də isə Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu cəmi 44 gün ərzində möhtəşəm tarixi Zəfər əldə etdi. Beynəlxalq səviyyədə tanınan ərazilərimiz Ermənistanın 30 ilə yaxın davam edən işğalından azad olundu. Cənab Prezidentin qeyd etdiyi kimi, "Bundan sonra əsrlər boyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır".

Müharibədə şanlı qələbə qazanan ordu bu gün daha qüvvətli, daha modern və çevik bir gücdür. Müharibədən sonra yaradılmış Komando Qüvvələri isə xüsusi diqqət çəkir. Prezident İlham Əliyev cari ilin 23 iyun tarixində Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin komando hərbi hissəsinə Döyüş bayrağının təqdimetmə mərasimində çıxışında demişdir: "İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi daha geniş vüsət almışdır. Təbii ki, işğal dövründə ordu quruculuğu bizim üçün bir nömrəli vəzifə idi və Ordumuzun, bütün Silahlı Qüvvələrimizin torpaqlarımızın azad olunması üçün hazırlıq işlərinə xüsusi önəm verirdi və biz buna nail olduq. Vətən müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə yekunlaşmışdır".

**(davamı 2-ci səhifədə)**

## *Hazırda dünyada baş verən mürəkkəb geosiyasi proseslər fonunda ölkəmizin nüfuzu yüksəlir*

**(əvvəli 1-ci səhifədə)**

Ölkə başçısı bildirib ki, ancaq buna baxmayaraq, müharibədən sonra ordu quruculuğu üçün əlavə addımlar atılır və buna böyük ehtiyac var. Çünki dünyada geosiyasi vəziyyət gərginləşir, bölgəmizdə yeni təhdidlər mövcuddur, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bütün bunları nəzərə alaraq, Ordumuzun daha da gücləndirilməsi vəzifəsi bir nömrəli vəzifə olaraq qalır.

Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziyalara müsahibəsində regionda vəziyyət, sülh prosesi, qarşıda dayanan vəzifələr haqqında ətraflı danışdı. Dövlətimizin başçısının müsahibəsində Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması prosesi xüsusilə diqqət mərkəzində oldu. Hazırda regional güc mərkəzi olan, bölgədə sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmizin xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürülür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edilir.

Bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu ifadə edirlər. Cənubi Qafqaz regionunun lider dövləti olan, müasir dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır. Regionun siyasi, iqtisadi və humanitar mərkəzi kimi çıxış edən respublikamız sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, mühüm siyasi, iqtisadi, mədəni və humanitar xarakterli beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında çox mühüm rol oynayır. Hazırda dünyada və yaxın regionumuzda baş verən mürəkkəb geosiyasi proseslər fonunda ölkəmizin Avropa üçün önəmi xeyli dərəcədə gücləndirib.

Enerji problemi ilə üzləşən Avropa ölkələri problemin aradan qaldırılması üçün müxtəlif yollar axtarır, bu istiqamətdə Azərbaycanla geniş müzakirələr aparır. Dünyada bu gün Azərbaycanın təbii qazına olan ehtiyac artmaqdadır. Şərq-Qərb nəqliyyat dəhlizi üzərində yerləşən Azərbaycan da öz coğrafi mövqeyinin verdiyi üstünlüklərdən faydalanaraq ölkələrin hər biri üçün məqbul olacaq təkliflər verir. Həmçinin regionun və özünün karbohidrogen məhsullarının Avropa bazarına çıxarılması imkanlarını genişləndirməyə çalışır.

Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır, Cənub Qaz Dəhlizi isə qitənin qaz təchizatının təhlükəsizliyi baxımından çox vacib layihədir. Bir sözlə, bütün dünya Azərbaycanın enerji təhlükəsizliyindəki rolunu yüksək qiymətləndirir. Avropa İttifaqı Cənub Qaz Dəhlizinin genişləndirilməsinə və Avropaya Azərbaycan qazının tədarükünün artırılmasına çalışır. Bütün bunlar isə ölkəmizin beynəlxalq müstəvidə rolunun daha da artdığını bir daha təsdiqləyir. Digər tərəfdən isə Azərbaycan alternativ enerji ixracatçısı qismində çıxış edir. Ötən ildən etibarən bu istiqamətdə vacib işlər görülüb, bir sıra Avropa dövlətləri ilə müvafiq sazişlər imzalanıb. Bu prosesdə Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" potensialından da səmərəli istifadə olunacaq. Ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Azərbaycanın həyatında yeni mərhələ başlayıb. Hazırda qarşıda dayanan ən əsas hədəflərdən biri sülhə nail olmaq və Cənubi Qafqazı əməkdaşlıq məkanına çevirməkdən ibarətdir.

Dünyanın ən əhəmiyyətli və irimiqyaslı beynəlxalq tədbirlərindən olan COP29-un noyabr ayında Azərbaycanda keçirilməsi ölkəmizin artan beynəlxalq nüfuzunun bariz nümunəsidir. Tədbir Azərbaycana xas yüksək səviyyədə, mükəmməl şəkildə təşkil ediləcək. COP29-un ölkəmizdə keçirilməsi, ilk növbədə, Prezident İlham Əliyevin dünyada yüksək nüfuzunun və həyata keçirdiyi uğurlu siyasətin sübutudur. Dövlətimizin başçısı qazanılan bu uğurla Azərbaycanın qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi. Ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə töhfə verməklə dünyanın diqqət mərkəzində olacaq. COP29-un Bakıda keçirilməsi Azərbaycanın Şimal və Cənub, eləcə də Şərqlə Qərb arasında siyasi və iqtisadi nöqteyi-nəzərdən körpü rolunu oynadığını bir daha rəsmən bəyan edir. Belə ki, tədbir çərçivəsində müxtəlif qlobal xarakterli müzakirələrin təşkil edilməsi diplomatiyamız üçün önəmli təcrübə qazandırmaqla yanaşı, ölkəmiz üçün yeni ikitərəfli və çoxtərəfli əməkdaşlıqlar perspektivi açır. Diqqətçəkən digər vacib məqam ondan ibarətdir ki, inkişaf etməkdə olan ölkələrin, kiçik və ya yoxsul dövlətlərin Bakıdakı konfransda problemlərini və düşüncələrini paylaşa bilməsi, bu tip ölkələrin Azərbaycana rəğbətini artıracaq. Çünki dövlətimiz onlara qlobal problemlərin müzakirəsi baxımından geniş platforma təqdim edəcək.

Qüdrətli və çiçəklənən Azərbaycan Prezident İlham Əliyevin amalıdır. Onun bütün siyasətinin ana xəttini məhz bu amal təşkil edir. Ərazi bütövlüyümüzün və suverenliyimizin qorunması, müstəqilliyimizin daha da güclənməsi, ölkəmizin iqtisadi-siyasi nüfuzunun artması, xalqımızın rifahının yüksəlməsi dövlət başçımızın ali məqsədi olub və bu məqsəd hər zaman öz aktuallığını, önəmini qoruyub saxlayacaq.

**Mustafa KAMAL,**
**"Respublika".**